**UOT: 791.43.**

**Simarə Verdiyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: verdiyeva.simare.1999@gmail.com**

# AZƏRBAYCAN KİNOSUNDA MAARİFÇİLİK

**Xülasə:** Məqalədə Azərbaycan kinosunda maarifçilik mövzusunun önəmi araşdırılmış, bu mövzuda 60-80-ci illərdə çəkilən filmlər qısa şəkildə təhlil edilmişdir. Həmçinin məqalədə Azərbaycan kinosunun xalqımızın, tamaşaçının həyatında əhəmiyyəti, maarifçi funksiyasını daşıdığı qeyd olunmuşdur.

**Açar sözlər**: maarifçilik, film, ədəbiyyat, inkişaf.

Bəzən xoş, bəzən isə ağır tale yaşayan Azərbaycan kinosu bir əsrdən artıqdır ki, öz mövqeyini dəyişməyib. Mayasında azərbaycançılığı yaşadan Azərbaycan kinosu yarandığı gündən milli düşüncəyə, vahid dövlətçilik ideologiyasına xidmət edib. Sözsüz ki, hər bir sənət növünün yaradılmasında məqsəd birmənalı olaraq maarifçiliklə bağlıdır. Sənət milli düşüncəyə, dövlətçiliyə, cəmiyyətin inkişafına xidmət etməlidir. Böyük tarixi yol keçən Azərbaycan kinosu da cəmiyyətin inkişafında mühüm rol oynayıb.

C.Cabbarlı, A.Şərifzadə, M.Mikayılov, A.Quliyev, R.Təhmasib kimi sənətkarlar milli kinomuzun yaranmasında başlıca yer tuturlar. Məhz onların və digər kino işçilərinin səyi nəticəsində Azərbaycan kinosu zaman keçdikcə çiçəklənib inkişaf etməyə başladı.

Azərbaycan kinosu yarandığı müddətdən başlayaraq milli ədəbiyyatdan bəhrələnib və bu proses bu gün də davam etməkdədir. Azərbaycan bədii ədəbiyyatı, istər klassik olsun, istərsə də müasir, milli kinomuz üçün bütün zamanlarda müxtəlif mövzulu filmlərin yaranması üçün mənbə rolunu oynamış, həmçinin maarifçiliyə də xidmət etmişdir. Maarifçilik ideya cərəyanı olaraq bir sıra dünya ölkələrində XVIII əsrdə yayılmış, maarifçilər həyatımızın bütün sahələrində irəliləyişlərə inam hissi ilə yanaşmışlar.

Azərbaycan kinematoqrafiyasında Rza Təhmasib, Tofiq Tağızadə, Həbib İsmayılov, Həsən Seyidbəyli, Əlisəttar Atakişiyev, Rasim Ocaqov, Arif Babayev,

Muxtar Dadaşov, Eldar Quliyev, Hüseyn Seyidzadə, Anar, Tofiq İsmayılov, Şamil Mahmudbəyov, Vaqif Mustafayev və digər kinorejissorlar maarifçilik filmləri ilə milli kinomuzu zənginləşdirmiş və daha da inkişaf etdirmişlər.

Beləliklə, ədəbiyyat kinematoqrafiyanın əsaslarından biri olmaqla yanaşı, həm də Azərbaycan kinosunda maarifçiliyin yaranmasına yardımçı olmuşdur. Biz bunu müxtəlif illərdə yaradılmış, istər ekranlaşdırma, istərsə də müstəqil ssenari üzrə çəkilmiş tarixi, bioqrafik, müharibə, müasir mövzularda olan filmlərdə görə bilərik.

Azərbaycan kinematoqrafiyasında müxtəlif illərdə müxtəlif mövzulu filmlər lentə alınmışdır. Həmin filmlərdə neft uğurunda gedən mübarizədən, əxlaqi və tərbiyəvi məsələlərdən, doğruluq, halallıq kimi yüksək insani keyfiyyətlərdən, vətənpərvərlikdən, mənfi keyfiyyətlərə, haqsızlığa, avamçılığa qarşı mübarizədən, eyni zamanda nəsillər arasında olan əlaqələrdən söhbət açılır.

60-cı illərdə Azərbaycan kinematoqrafiyası sırasına tarixi-inqilabi filmlər daxil edildi. Məsələn, Ağarza Quliyevin “Səhər” (1960), Hüseyn Seyidzadənin “Yenilməz batalyon” (1965), Əjdər İbrahimovun “İyirmialtılar” (1966) filmləri.

Elə götürək Ağarza Quliyevin 1960-cı ildə lentə aldığı “Səhər” filmini. Bu film Mehdi Hüseynin eyniadlı romanının motivləri əsasında çəkilmişdir. Filmdə sahibkarlar və fəhlələr arasında olan qarşıdurmadan, işçi qüvvəsinə olan haqsızlıqlardan və daha sonra yaranan fəhlə tətilləri, inqilabdan bəhs olunur. Həmin bu inqilabın başında sahibkar olan Rəhim bəyin (Ələsgər Ələkbərov) qardaşı oğlu Məşədi Əzizbəyov (Nodar Şaşıqoğlu) durur.

Bununla yanaşı, filmdə Bayram (Giuli Çoxonelidze) və Aslan (Lütfi Məmmədbəyli) obrazları da var ki, onlar tətilin aparıcı fəhlələri hesab olunurlar. Filmin ilk səhnələrində tamaşaçı əslində Bayram obrazında olan fəhlənin onlara rəhbərlik edən sahibkarlar kimi dövlətli olmaq istəyini görür. Ancaq film irəlilədikcə Bayramın mövqeyinin dəyişdiyinin şahidi oluruq. Artıq o da fəhlə tətilinin fəal iştirakçısı və bir inqilabçıdır. Film Bayramın kənddə ailəsi ilə sağollaşıb, neft mədənlərində fəhlə kimi işləmək üçün Bakıya yola çıxdığı səhnə ilə başlayır. Sonrakı səhnədə, sahibkar Rəhim bəyin neft mədəninin yandığını və fəhlələrin həmin yanğını canları bahasına söndürdüklərini görürük. İlk olaraq Bayramı digər fəhlələrdən fərqləndirən cəhət odur ki, onun öz sahibkarına qarşı bir rəğbət hissi vardır, ancaq işçilər Bayramı bu cür fikirdən yayındırmaq istəyirlər. Bunu isə Məşədi Əzizbəyov bacarır və onu öz istəyilə bu inqilaba

cəlb edir. Həmin inqilabın məqsədi bundan ibarətdir ki, fəhlələrin öz haqlarını sahibkarlardan tələb etmələri və çəkilən əziyyətlərin qarşılığını layiqincə almaq istəmələridir. Əgər ki, kim bu fəhlə tətilinin iştirakçısı olarsa bu zaman ən ağır şəkildə hökumət tərəfindən cəzalandırılırlar.

Bütün bunlarla yanaşı filmdə Rəhim bəyin rus fəhlələrinə qarşı olan əks mövqeyinin də şahidi oluruq. O öz işçiləri arasında rusların olmasını istəmir. Və eyni zamanda filmdə milli ayrı-seçkiliyi də nəzərə çarpacaq qədər görə bilirik.

Filmdə danışdığım mövzularla bərabər sevgi-məhəbbət mövzusuna da toxunulur ki, bu filmdə inqilabın digər aparıcı iştirakçısı olan Aslanın kiçik də olsa Rəhim bəyin qızı Sevdayla olan sevgi xəttini izləmiş oluruq.

Həmçinin filmin musiqilərindən də söz açmaq istərdim. Filmdə Fikrət Əmirovun bəstələdiyi və bizlərində film boyu dəfələrlə Aslanın ifasında dinlədiyimiz "Aslan" mahnısı ağ-qara olan kadrlara ayrıca olaraq rəng qatmışdır.

Eyni zamanda 1960-cı illər Azərbaycan kinosunun tamaşaçısına "Telefonçu qız", "Möcüzələr adası", "Sehrli xalat", "Arşın mal alan", "Qanun naminə", "Bir cənub şəhərində" kimi filmləri də bəxş etdi. Və bu dövrdə susaraq hayqıran bir qız ekrana gəlir… Və artıq Cəmilənin 55 illik sükutu var Azərbaycan kinosunda… 1960-cı illər Azərbaycan kinosunun yüksəlişi ilə bərabər Cəmilənin səssizliyinin də yüksəlməsiylə yadda qalmağı bacardı.

Bəli, söhbət məhz "Sən niyə susursan?" filminin qəhrəmanından gedir. Bu o filmdir ki, Həsən Seyidbəylinin verdiyi suala hələ də cavab axtaranlar tapılır. Film 55 illik zaman sınağından keçməsinə baxmayaraq, hələ də Azərbaycan kinosunda çəkilən ən yaxşı psixoloji dramdır.

Bu film şərəfsizlik, xalq malının talan edilməsi kimi eybəcər hallara qarşı mübarizəyə çağırış filmidir. Filmdə hadisələrin əksəriyyəti yolda cərəyan edir. Buna görə də Rasimin getdiyi yol rəmzi məna daşıyır. Və yolun özü də filmdə bərabərhüquqlu qəhrəman hesab olunur. Bu yol Rasimin həyat yoludur. O bu yolda zamanla nələrlə qarşılaşa bilər – tamaşaçı məhz bunu qısa zaman kəsiyində görür. Yollar bir-birindən uzaq şəhər və kəndləri birləşdirdiyi kimi, həyat yolları da bir-birini tanımayan insanları birləşdirib eyni taleni yaşamağa məhkum edir, Rasimlə Cəmilə kimi. Bir-birinə uzaq olan, fərqli insanlar anidən eyni yolun, yəni eyni həyatın içində özlərini tapırlar. Ən əsas məqamsa, onlar istəsələr belə, bu yoldan çıxa, başqa yolu seçə bilməzlər. Yol gəncləri bir-birini başa düşməyə kömək edir, bir-birilərinə qarşı inam hissi yaradır.

Filmdə ciddi olduğu qədər də mürəkkəb problemlərə yer verilir. Film bir növ dövrünün insanlarını yalandan, qısaca desəm, "Şirməmməd kimi" olmaqdan uzaq olmalarına çağırış edir. Bu zaman filmin istər yaxşı, istərsə də pis yöndə necə güclü təbliğat vasitəsi olduğunu görmək o qədər də çətin deyil. Əminəm, 1960-cı illərin vətəndaşlarından Rasimin də əxlaqi keyfiyyətindən örnək götürənlər olub, amma Şirməmməddən də eyni örnəyi alanlar da az deyildir.

Bəs Şirməmməd kimdir? Şirməmməd qanunsuz balıq ovu ilə məşğul olub, brakonyerlərə məhsul satan əxlaqi normaları aşağı səviyyəli olan canidir. O, pul qazanmaq xatirinə hər yola əl atmağa hər an hazırdır. Ətrafı da ondan heç də fərqlənməyən insanlardan ibarətdir.

Rasimlə Şirməmməd cütlüyü sanki gecə-gündüz qədər fərqlidir. Şirməmmədin qəddar, yalançı, öz mənafeyini güdən olduğu qədər, Rasim rəhmli, dürüst, hər kəsə kömək edəcək qədər ürəyiaçıq olduğunu görə bilirik. Şirməmməd artıq bəlli bir yaşa gəlmiş, ağı qaradan asanlıqla seçə bilən adamdır. Filmdə isə, elə o qara Şirməmmədin özü, ağ isə məhz Rasimdir. Rasim gəncdir, cəsarətinin çatacağı hər şeyi edə biləcəyini düşünür, lakin anlamadığı tək bir şey var – həyatda hər şey tək cəsarətlə həll olunmur. Qəhrəmanın düşdüyü bu vəziyyət də ona bunu göstərir.

Quruluşçu rejissor Həsən Seyidbəyli "Sən niyə susursan?" filmi ilə bağlı demişdir: "Mənim bütöv yaradıcılığımın əsas mövzusu insanın xeyirxahlığı, insanın mənəvi gözəlliyi ilə bağlıdır. Əgər əvvəlki filmlərimdə əsas mövzunun ayrı-ayrı hissələrini işləmişdimsə, "Sən niyə susursan?" filmində bütün bu motivlər ümumiləşdirilmişdir." Filmdə Rasimin timsalında görürük ki, insan cəmiyyətimizdə baş verən haqsızlıqları, eybəcərlikləri görəndə susmamalıdır, əksinə onlara qarşı daima mübarizə aparmalıdır.

1980-ci illərdə də Azərbaycanın xalq yazıçısı Anarın əsərləri ekrana gətirildi. Tanınmış kinoaktyor Həsən Məmmədov müsahibələrinin birində belə demişdir: "Anar həyatda, sənətdə heç kimə bənzəmir. Ədəbiyyatımızda onun özünəməxsus yeri və dəst-xətti var. Hər hansı bir əsərini oxuyanda bilirsən ki, bu, Anarın qələmindən çıxıb. Elə özünün çəkdiyi filmlər də. "Üzeyir ömrü" və "Qəm pəncərəsi" adi bədii filmlər deyil. Bunlar həm də görkəmli sənətkarlarımız haqqında monumental tədqiqat əsərləridir. Belə filmləri çəkmək üçün kinorejissor və yazıçı olmaq azdır. Gərək əvvəlcə geniş biliyə və dünyagörüşə malik alim olasan". Anar özü "Üzeyir ömrü" və eləcə də "Qəm pəncərəsi" filmlərinin

həm rejissoru həm də ssenari müəllifi olmuşdur. Hətta Anar bu iki filmə görə maarifçi kinematoqrafçı adını almışdır.

Bioqrafik bədii televiziya filmi olan “Üzeyir ömrü” iki hissədən ibarət, orijinal ssenari əsasında çəkilmişdir. Filmdə dahi sənətkarın uşaqlıq həyatından başlayaraq, ömrünün gənclik illərinin, musiqi aləmində ilk addımlarının şahidi oluruq. Bununla yanaşı filmdə SSRİ Dövlət Film Fondunun və Azərbaycan Mərkəzi Dövlət Kino-Foto Sənədlər Arxivinin kino və foto materiallarından istifadə olunmuşdur. Bu filmdə dahi musiqiçimiz olan Üzeyir Hacıbəyovun maarifçilik fəaliyyəti, istedadlı yazıçılıq qabiliyyəti ekranda əks olunmuşdur. Həmçinin Üzeyir Hacıbəyovun əsərlərindən “Arşın mal alan”, “O olmasın bu olsun”, “Koroğlu” kimi filmlərindən fraqmentlər də görürük. Eyni zamanda onun həmin dövrlərdə yaşadığı problemlər, o dönəm üçün cəmiyyətlə apardığı mübarizələrdən bəhs olunur. Və tamaşaçı “Leyli və Məcnun” operasının, eləcə də “O olmasın bu olsun”, “Arşın mal alan” kimi operettaların necə yarandığı haqda “Üzeyir ömrü” filmini izləyərək məlumat almış olur.

Həm bioqrafik, həm də ekranlaşdırma olan “Qəm pəncərəsi” filmi 1986-cı ildə Anar tərəfindən Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” povesti, “Danabaş kəndinin məktəbi” pyesi və Həmidə xanımın xatirələri əsasında çəkilmişdir. “Qəm pəncərəsi” də “Üzeyir ömrü” kimi iki hissəli bədii filmdir. Filmdə Cəlil Məmmədquluzadənin (Həsənağa Turabov) obrazı yaradılmış, ömrünün son illəri əks olunmuşdur. Bununla bərabər o uşaqlıq illərini də film boyu xatırlayır.

Deməli, filmdə bir kənddə baş verən dövrün ictimai hadisələri, mollaların özbaşınalığı və insanların həmin mollalara inanması, bununla da avamçılığın baş alıb getdiyi bir dövrə Mirzə Cəlilin, Anarın gözləriylə şahid oluruq. Filmdə İsgəndər (Fəxrəddin Manafov) obrazı var ki, o insanları maarifləndirməyə, həmin bisavad mollalara inanmamağa səsləyir.

Danışdığım bu və ya digər bir çox filmlərdə qoyulan problemlər bu gündə öz aktuallığını saxlayır və insanların maariflənməsində böyük rol oynayır.

**Ədəbiyyat siyahısı:**

1. Aydın Kazımzadə - "Azərbaycan kinematoqrafçıları" - Bakı, "Tərəqqi", 2017. səh. 102-103
2. Aydın Kazımzadə - "Kino və zaman" - Bakı, "Şərq-Qərb", 2016. Səh. 507-508

**Симара Вердиева**

## ПРОСВЕЩЕНИЕ В АЗЕРБАЙДЖАНСКОМ КИНО

**Резюме**: В статье исследуется важность темы просвещения в азербайджанском кино, кратко анализированы фильмы, снятые на эту тему в 60-80-е годы. Также в статье было отмечено, что азербайджанское кино несет просветительскую функцию в жизни нашего народа, зрителя.

**Ключевые слова**: просвещение, фильм, литература, развитие.

**Simara Verdiyeva**

## ENLIGHTENMENT IN AZERBAIJANI CINEMA

**Summary**: The article examines the importance of the topic of enlightenment in Azerbaijani cinema, and briefly analyzes the films made in the 60s and 80s on this topic. The article also notes the importance of Azerbaijani cinema in the life of our people, the audience, and its enlightening function.

**Key words**: enlightenment, film, literature, development.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Əli Əmirli**